Qol.Az
"Bizim verilişlərdən sonra AFFA prezidenti stadionlara girişimi qadağan etdi"

İlin ilk reytinqi - millimiz neçəncidir?

Ruslan Abışov "Neftçi"də

Premyer Liqamızda qış transferləri - Yenilənir



İlham Əliyev Ərdoğana məktub göndərdi


Prezident DSX-nın inşası başa çatan gəmisi ilə tanış oldu


"Komandamız "KVN" festivalında iştirakdan imtina edə bilər"


Çağdaş Azərbaycan ədəbiyyatında detektiv: janrın mənzərəsinə bir baxış

Seçilmişlərə əlavə et | WAP | Çap versiyası | Köhnə 525 |

Saytdan... Axtarış

525.az 525-ci qəzet

Əsas səhifə | Bütün xəbərlər | Siyasət | Sosial | İqtisadiyyat | Hadisə | Mədəniyyət | İdman | Bakı 2015 | Qarabağ | Ədəbiyyat | Digər

# Yaponiyada Azərbaycanı ən çox sevən şəhər

## ƏLİBƏY MƏMMƏDOV: "AZƏRBAYCANLILARIN ƏKSƏRİYYƏTİ TOYOTİMA ŞƏHƏRİNİ TANIMASALAR DA, BURANIN İNSANLARI AZƏRBAYCANA VƏ ONUN TARİXİNƏ YAXŞI BƏLƏDDİRLƏR"

Siyasət A+ a-
Oxunub: 41 dəfə 13.01.17 16:03

**Yaponiya yüksək inkişaf yolu keçmiş ölkə olaraq hər zaman azərbaycanlıların diqqət mərkəzində olub.**

Azərbaycanda yapon işgüzarlığına, elminin inkişafına, əzmkarlığına, mədəniyyətinə, qədim tarixinə olan hörmət yüksək səviyyədədir.

Yaponiya hökuməti Azərbaycanda bir çox vacib layihələr həyata keçirib, ucqar regionlarımızda məktəblər tikdirib və xalqımızın rəğbətini qazanıb.

Yaponiyanın Şizuoka prefekturasının İto şəhəri ilə İsmayıllı rayonu arasında qardaşlaşma layihəsi də uğurla həyata keçirilib. Ötən il isə Naxçıvan şəhəri ilə Miyakojima arasında münasibətlər özünün inkişaf dövrünə qədəm qoyub. Hazırda onlarla həmyerlimiz

SON XƏBƏRLƏR

13 Yanvar 2017

17:02 Məhkəmə Maşallah Əhmədov... vaxt verdi

16:53 Azərbaycan 2017-ci ilə ciddi iqtisadi hədəflərlə daxil olur

16:43 İlham Əliyev Ərdoğana məktub göndərdi

16:33 Prezident DSX-nın inşası başa çatan gəmisi ilə tanış oldu

16:23 "Komandamız "KVN" festivalında iştirakdan imtina

facebook



bu ölkədə yaşayır, işləyir və təhsil alırlar.

Yaponiyada Azərbaycan diasporu da gözəçarpacaq dərəcədə uğurla fəaliyyət göstərir. Hokkaydo Universitetinin doktorantı, hökumət təqaüdçüsü, Yaponiya-Azərbaycan Əməkdaşlıq Assosiasiyasının sədri Əlibəy Məmmədov Yaponiyanın yerli media orqanları, iş adamları və elm adamları ilə sıx əlaqədə olmaqla, Azərbaycanın ən yüksək səviyyədə tanıdılmasına böyük töhfələr verməyə davam edir. O, bugünədək ölkəmiz üçün çox əhəmiyyətli mövzulardan olan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı yerli televiziya kanallarına, bir neçə milyon tirajlıq qəzetlərə müsahibələr verməklə Azərbaycanın haqlı səsini Yaponiya ictimaiyyətinə çatdırmağa çalışıb.

Əlibəy Məmmədov "525"ə açıqlamasında bildirib ki, onun fəaliyyəti ərzində ən çox çalışdığı məsələ Yaponiya ilə Azərbaycanın regionları arasında münasibətlərin yaradılması və inkişaf etdirilməsidir. Bu məqsədlə araşdırmalar aparan həmyerlimiz Yaponiyada Azərbaycanı ən çox tanıyan və hörmət edən şəhəri kəşf edib. Onun sözlərinə görə, azərbaycanlıların əksəriyyəti bu şəhəri tanımasalar da, buranın insanları Azərbaycana və onun tarixinə yaxşı bələddirlər.

Bu maraqlı məsələni dərindən araşdırmaq məqsədilə Ə.Məmmədov Yaponiyanın Hokkaydo prefekturasının mərkəzi Sapporo şəhəri icra hakimiyyətinin nümayəndəsi Yoşida Hiroşi ilə birlikdə cari ilin yanvar ayının 7-dən 9-dək bu sirli şəhərə 3 günlük səfər edib. Sözügedən şəhərin adı Toyotomidir.

Ə.Məmmədov qeyd edib ki, Toyotomi çox maraqlı və olduqca sirli bir şəhərdir: "Hətta yaponiyalıların əksəriyyəti belə buranı tanımırlar. Sözügedən şəhərə yaponların köçü təxminən 148 il öncədən, Meiji erasından başlayıb. Burada 1926-cı ildə təbii qaz axtarışları zamanı qazıntılar həyata keçirilib. Nəticədə tərkibində neft elementlərinin olduğu isti bulaqlar (onsen) fontan vurmağa başlayıb. Elə həmin ildən regionda bir neçə otellər tikilib fəaliyyət göstərməyə başlayıb".

Həmyerlimizin sözlərinə görə, bu region özünün neft bulaqları (vannaları) ilə məşhurdur: "Yerli insanların dediyinə görə, dünyada sadəcə iki dövlətdə neft vannaları var: Biri Azərbaycanın Naftalan şəhərində, digəri Yaponiyanın Toyotomi şəhərində. Məhz bu səbəbdən regionda Azərbaycan adı çox məşhurdur. Yerli icra orqanlarının nümayəndələri, ziyalılar hər zaman etdikləri çıxışlar zamanı hökmən Azərbaycandan misal gətirirlər. Hətta Naftalana səfər edən yaponiyalıların sayı da az olmayıb. Səfər zamanı Toyotomi şəhərinin Toyotomi Onsen qəsəbəsində yerləşən və 90 illik qədim tarixə malik Kavaşima Ryokanın rəhbəri Haşimoto Yasuhiro, Haşimoto Miho, Toyotomi Şəhər Turizm Assosiasiyasının məsul şəxsi Naohisa Kuriyama, Toyotomi Onsen Fureai mərkəzinin məsul şəxsi Şigeru Ozaki və digərləri ilə məsləhətləşmələr aparılıb. Toyotomi şəhərinin ali nümayəndələri səviyyəsində Azərbaycanla yüksək səviyyəli əməkdaşlığa böyük marağın olduğu qeyd edilib. Bildirilib ki, ilk olaraq Naftalanla Toyotomi arasında qardaşlaşma layihəsini həyata keçirmək böyük addım olardı. Eyni zamanda Yaponiyadan Azərbaycana səfər etməklə, bu sahədə daha qədim tarixə və dərin biliklərə malik azərbaycanlı mütəxəssislərlə fikir mübadiləri aparmağa ehtiyac var. Sapporo şəhər icra hakimiyyətinin nümayəndəsi Yoşida Hiroşi Sapporo şəhəri səviyyəsində lazım olacaq istənilən köməkliyi göstərməyə maraqlı olduqlarını vurğulayıb, Azərbaycan və Yaponiya arasında ikitərəfli münasibətlərin daha da dərinləşdirilməsində bundan sonra da fəaliyyət göstərəcəklərini qeyd edib".

edə bilər"

16:13 "Azərbaycanın beynəlxalq aləmdə nüfuzu artmaqdadır"

16:03 Yaponiyada Azərbaycanı ən çox sevən şəhər

15:54 Neft Məktəbində layihə iştirakçıları mükafatlandırıldı

15:44 Çağdaş Azərbaycan ədəbiyyatında detektiv: janrın mənzərəsinə bir baxış

15:34 Ermənistan-Azərbaycan Sülh Platformasının iştirakçıları bəyanat yaydılar

15:24 Deputatın etik davranış kode hazırlanır

15:14 Görkəmli kontrabas ifaçısı İly Hüseynov vəfat etdi

15:04 Vitse-admiral son söz üçün va istədi

14:55 XİN-dən separatçı rejimin KVN-də iştirakı ilə bağlı bəyanat

14:45 Nazirlikdən separatçı rejimin “KVN” festivalında iştirakına etiraz

14:35 Sabah hava necə olacaq?

facebook

Ə.Məmmədov deyib ki, belə bir sirli məkanın Azərbaycanda tanıdılması və qarşılıqlı səfərlərin planlaşdırılması və təşkil edilməsi, nəticə etibarilə hər iki ölkənin regionları arasında inkişaf etməkdə olan müsbət əlaqələri daha da intensivləşdirəcək.

Diaspora rəhbəri sonda onu da əlavə edib ki, yaxın zamanlarda Toyotomi şəhərində Azərbaycanla bağlı elmi çıxışların və sərgilərin həyata keçirilməsi planlaşdırılır.

**Ceyhun ABASOV**

おすすめ 1人がすすめています。友達にすすめましょう。




あなたと他友達22人が「いいね！」しました



## Bölmənin digər xəbərləri



Azərbaycan 2017-ci ilə ciddi iqtisadi hədəflərlə daxil olur

Xəbər verdiyimiz kimi, yanvarın 10-da prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib....

13.01.17

14:25 Şahin Mustafayevdən Azərbaycan hökuməti adından Almaniyaya başsağlığı

14:15 Konqresdən separatçı rejimin “KVN” festivalında iştirakına etiraz

14:05 ADPU-da doktoranturaya və dissertanturaya qəbul imtahanları başa çatdı

13:56 "Yoluxucu xəstəliklərin qarşısı alınıb"

13:46 "Ana ölümü əmsalı 24-dən 22-yə enib"

13:36 "120 minə qədər tibb işçisinin hamısının xalqa vicdanla xidm etdiyini deyə bilmərik"

13:26 TBMM prezidentə geniş səlahiyyətlər verən Konstitus dəyişikliyi təklİfini qəbul etdi

13:16 5 saylı xəstəxanada baş verən ölümün ilkin səbəbi

13:06 Ombudsmandan 20 Yanvar bəyanatı

12:57 "Bugünkü uğurumuz məqsədyönlü səylərin nəticəsidir"